www.tezadlar.go.to

TƏZADLAR

tezadlar@bakililar.az

46 (443) 19-26 noyabr 2002-ci il Qəzet 1993-cü ildən çıxır

# Bəxtiyar Vahabzadəyə Hollandiyadan məktub

## Oxucumuz Yaşar Azəri şairi Tanrıya tapşırır...

*Qəzetimizin elektron poçtuna daxil olmuş bir məktub diqətimizi çəkdi.*



**Xalq şairi Bəxtiyar Vahabzadəyə ünvan edilmiş məktuba böyük şairin barəsində qəzetimizdə getmiş yazılar və ustadın alovlu şe'rləri səbəb olub.**

Oxucumuz Yaşar Azəri yazır: **"Sevimli Bəxtiyar müəllim! Azərbaycandakı mə'lum hadisə və səbəblərdən qərib düşmüşük. Qərbi Avropada yaşayırıq. Ancaq canımız Vətəndədir. Nə yaxşı ki, İnternet əlaqələrimiz var. Vətənin iyini Sizin şe'rlərinizdən və dəyərli sözlərinizdən alırıq. Uca dağ başı həmişə dumanlı-çənli olar. Sizə əski sovet dönəmində edilmiş təzyiqləri də bilirik, indiki qısqanclığı da. Bilin ki, Tanrı Sizinlədir və bu sün'i təzyiqlər yalnız Sizin müqavimətinizi, daxili enerjinizi böyütməyə xidmət edir.**

**Ustadım, hərdən həyatdan və taledən küsəndə Sizin şe'rlərinizi oxuyuruq. Vətən, Qarabağ duyğulu bu şe'rlər bizə ruh verir.**

**Tanrı Sizi qorusun! Çünki Sizin varlığınız, Sizin ağsaqqallığınız milyonları içindən qırılmamağa, küskün olmamağa səsləyir!**

**Varlığınız qarşısında baş əyir, Sizə Qərbi Avropadan salamlar göndəririk!"**